# DTX Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə Naxçıvan şəhərində silsilə tədbirlər keçirib

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında silsilə tədbirlər təşkil edib. Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, tədbirlər çərçivəsində aprelin 24-də Xidmətin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin bir qrup əməkdaşı Culfa rayonu ərazisində yerləşən Haçadağ zirvəsinə yürüş təşkil edib.**











Yürüş iştirakçıları qarşıya çıxan maneələri uğurla dəf edərək təyin olunan yerə vaxtında çatıb, orada Ulu Öndərin şəkli əks olunmuş plakatı və Azərbaycanın Dövlət Bayrağını yerləşdiriblər.

Aprelin 26-da isə Naxçıvan şəhərində "Heydər Əliyev və təhlükəsizlik orqanları" adlı təntənəli tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə müasir Azərbaycanın banisi və qurucusu, Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, xatirəsinə ehtiramlarını bildiriblər. Sonra Heydər Əliyev Muzeyinə ekskursiya təşkil olunub. Burada qonaqlar dahi rəhbərin həyat və fəaliyyətini özündə əks etdirən fotostendlərlə və müxtəlif dəyərli eksponatlarla yaxından tanış olublar.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında (MR) Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, DTX-nin rəhbər şəxsləri və əməkdaşları, şəhərin hüquq-mühafizə orqanlarının rəhbərləri, təhlükəsizlik orqanlarının veteranları, Vətən



müharibəsi iştirakçıları, şəhid ailəsi üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Öncə Ümummilli Lider Heydər Əliyevin və Vətən yolunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan MR-də Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli belə tədbirin Ulu Öndərin böyüyüb boya-başa çatdığı, doğma Naxçıvan şəhərində keçirilməsinin önəminə toxunub. O, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin ömür yoluna nəzər salaraq dahi şəxsiyyətin təhlükəsizlik orqanlarında fəaliyyəti və Azərbaycanın rəhbəri olaraq misilsiz xidmətləri barədə ətraflı məlumat verib, ölkəmizin milli tərəqqi strategiyasının əsasının məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmasından geniş söhbət açıb. Fuad Nəcəfli Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və bu siyasət xəttinin ölkəmizin davamlı yüksəlişinə xidmət etdiyini xüsusi vurğulayıb.

Digər çıxışçılar da Ulu Öndərin təhlükəsizlik orqanlarında xidməti fəaliyyətinə məhz Naxçıvan şəhərində başladığını diqqətə çatdırıblar. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyev öz dəmir iradəsi, yenilməz əzmi, dərin biliyi, istedadı və bacarığı sayəsində vəzifə pillələrində inamla addımlayaraq təhlükəsizlik təsisatının rəhbəri vəzifəsinə qədər yüksəlməyi bacarıb və bu qurumun ilk azərbaycanlı generalı olub.

Məruzəçilər Ulu Öndərin həmin təşkilata ən mühüm töhfəsi olan, keçən əsrin 50-ci illərinin əvvəllərindən başlanan bu orqanların milliləşdirilməsi prosesinin iştirakçısı və sonralar da birbaşa təşkilatçısı olduğunu özünün hər zaman qürur və böyük iftixar hissi ilə xatırladığını söyləyib, Heydər Əliyevin peşəkarlıq irsinin bundan sonra da layiqincə davam etdiriləcəyinə əminliklərini ifadə ediblər.

Sonda tədbir iştirakçıları təhlükəsizlik orqanlarının tarixindən və Heydər Əliyevin bu orqanlardakı fəaliyyətindən bəhs edən sənədli filmə baxıblar.